**Azərbaycan.** - 2022.- 31 dekabr. - № 288. - S. 28.

# Tarixdə izi qalan böyük şəxsiyyət

**Əhliman Əmiraslanov**,
Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik, SSRİ Dövlət mükafatı laureatı

Tarixdə iz qoymaq hər adama müəssər olmur, bu ancaq böyük insanların nəsibidir. Onlar milli ideallarını gerçəkləşdirməkdən ötrü çətinliklərdən keçir, hətta nələrisə qurban verir, məhrumiyyətlər yaşayır, çıxılmaz məqamlar, ağır sınaqlarla üz-üzə qalır.

Milyonlarla insanları bu sınaqlardan çıxaranlar, uğurlarına vəsilə olanlarsa məhz tarixi şəxsiyyətlərdir. Onları adbaad sadalayıb həyat və fəaliyyətlərini nəzərdən keçirməyə, bir yazıda təbii ki, imkan yoxdur. Amma bu şəxsiyyətlərin ömürlüyü, keçdikləri həyat yolu, apardıqları mübarizələr çoxumuza bəllidir. Onların yaşadıqları zaman da, məkan da, tarixi taleləri də bir-birindən xeyli fərqlənir. Bu şəxsiyyətlərin həyatı bənzərsizdir, bir insanın yaşadığı ömür deyil. Bu ömrün hər bir anında mənsub olduğu xalqın tarixi ilə bağlı coxlu əlamətdar məqamlar var. Belə böyük şəxsiyyətlərimizdən biri də görkəmli Azərbaycan alimi və ictimai-siyasi xadim, professor Əziz Məmmədkərim oğlu Əliyevdir.

Əziz Əliyev bütün ömrünü xalqı üçün yaşamışdı. O, çox gənc yaşlarından Azərbaycanda səhiyyə işinin təşkilində, eləcə də dövlət quruculuğu proseslərində fəal iştirak etmiş, milli səhiyyə sistemimizin inkişafında, dövlət idarəçiliyi işinin təkmilləşdirilməsində tarixi xidmətlər göstərmişdir. Ulu Öndər Heydər Əliyev hələ 1998-ci il mayın 14-də keçirilən böyük alimin 100 illik yubiley tədbirində Əziz Əliyevin əməyini, tarixi xidmətlərini yüksək dəyərləndirərək demişdir: "O, həm həkim, həm alim, həm də səhiyyə təşkilatçısı idi. O, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbərlərindən biri, XX əsrin ən ağır illərində Dağıstanın birinci rəhbəri idi. Moskvada, sonra isə Azərbaycanda məsul işdə çalışmışdı. Ancaq eyni zamanda onun həyatı heç də asan keçmirdi, maneələrlə, çətinliklərlə, özünə qarşı edilən bir çox haqsızlıqlarla rastlaşırdı. Amma bunların hamısını aradan qaldırır və yolundan dönmürdü". Bu, Ümummilli Liderin unudulmaz şəxsiyyətə olan ehtiramının təcəssümü idi. O gündən - 1998-ci il mayın 14-də keçirilən unudulmaz şəxsiyyətin 100 illik yubiley tədbirindən 25 il keçir. Lakin Heydər Əliyevin o zaman ifadə etdiyi sözlərlə, dilə gətirdiyi fikirlərlə Azərbaycanın iftixarı olan görkəmli övladlarından biri - Əziz Əliyevi daha yaxşı tanıyır, xatirəsini böyük hörmət və ehtiramla hər zaman yad edirik.

## Həyat yolu: bitib-tükənməyən sınaqlar

Gələcək sənət seçimini o, hələ uşaqlıqdan etmişdi: həkim olmaq arzusunda idi. Amma bundan ötrü Rusiya imperiyasının aparıcı şəhərlərindəki ali məktəblərdən birinə qəbul olunmaq lazım gəlirdi. O zaman Azərbaycanda hələ ali tibb təhsili verən məktəb yox idi. Uzaq şəhərlərdə təhsil almaq, yaşamaq üçünsə kifayət qədər maddi vəsait tələb olunurdu və gənc Əzizin ailəsi bu məsrəfləri ödəmək gücündə deyildi. Amma Əziz Əliyev çıxış yolu tapır. Mesenatlarımızdan ən tanınmışı, xeyirxah əməllərinin sözü-söhbəti dildən-dilə dolaşan Hacı Zeynalabdin Tağıyevə tibb təhsili almasına kömək göstərməsi üçün məktubla müraciət edir. Məşhur xeyriyyəçi oxumaq həvəsi olan digər gənclər kimi Əziz Əliyevə də köməyini əsirgəmir. Onun təhsil almasına həmin vaxt üçün kifayət qədər dəyərli vəsait hesab olunan 300 rubl kömək göstərir.

Əziz Əliyev elə həmin il Sankt-Peterburqda tələbkar alimlərin iştirakı ilə aparılan müsabiqədən müvəffəqiyyətlə keçir. O dövr üçün Rusiyanın ən nüfuzlu ali tibb məktəblərindən sayılan Hərbi Tibb Akademiyasına daxil olur. Akademiyada təhsil almaqla yanaşı, elə birinci kursun əvvəllərindən boş vaxtlarında Sankt-Peterburqda səpkili yatalaqla mübarizə əleyhinə təşkil edilmiş dezinfeksiya-profilaktika briqadasında çalışır. Aldığı maaşla həm özünün minimal güzəranını təmin edir, həm də valideynlərinə bacardığı qədər yardım göstərməyə başlayır. Əfsuslar olsun ki, bu dəfə də gözlənilmədən növbəti maneələr qarşıya çıxır. Əziz Əliyev 1918-ci ildə akademiyanın birinci kursunu uğurla başa vurub ikinci kursa keçir və yay tətili günlərində İrəvana gəlir. Burada erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri dəhşətli əməlləri görür. Əziz Əliyevin ailəsi də ermənilərin azərbaycanlılara qarşı bəşəri cinayətlərindən əziyyət çəkənlərdən idi. O, erməni zülmü nəticəsində yerindən-yurdundan didərgin düşmüş ailəsini belə vəziyyətdə qoyub Sankt-Peterburqa qayıda bilmir. Ali təhsilini yarımçıq dayandırır. Onlar əvvəlcə Naxçıvanın Şərur rayonunda, Cənubi Azərbaycanın Ərəblər kəndində, sonra yenidən Naxçıvanın Şahtaxtı kəndində məskunlaşırlar. Burada ağır məcburi köçkünlük həyatı yaşayırlar.

Həmin illərdə ermənilər Azərbaycan torpağında soydaşlarımıza qarşı əsl soyqırımı aktları törədirdilər. Tarixi mənbələrə görə, XIX əsrin sonlarında (1897-ci ildə) aparılan siyahıyaalma məlumatları

göstərir ki, İrəvan Quberniyasında yaşayan əhalinin 87 faizini yerli xalq, yəni Azərbaycan türkləri, çox cüzi bir hissəsini isə ermənilər və digər millətlərin nümayəndələri təşkil edirdi. Lakin Daşnaksütyun partiyası yaradıldıqdan sonra 1905-1907 və 1917-1918-ci illərdə bu rəqəm erməni zorakılıqları nəticəsində 50 faizə qədər azaldı. Azərbaycan torpaqlarına zorla miqrasiya etdirilən gəlmə ermənilər tədricən, mərhələlərlə planlı surətdə havadarlarının köməyi ilə yerli xalqı - azərbaycanlıları öz dədə-baba yurdlarında soyqırımına uğratdılar və salamat qalan əhalinin didərgin düşməsinə məcburi vəziyyət yaratdılar. Həmin illərin məcburi köçkün qurbanlarından biri də gələcəkdə bəşər tarixinin parlaq simalarından birinə çevriləcək Əziz Əliyev və onun ailə üzvləri oldu.

Vəziyyət nə qədər dözülməz olsa da, Əziz Əliyev yenə də gələcəyə inamını, ümidini itirmədi, insanlara faydalı olmağa çalışdı. Gimnaziyada qazandığı mükəmməl savad, ardınca Sankt-Peterburq Tibb Akademiyasında birillik təhsil və həkim briqadasında iş təcrübəsi Əziz Əliyevdə tibb sahəsində müəyyən bilik və bacarıqlar formalaşdırdı. Heç bir tibbi xidmət imkanının olmadığı, məcburi köçkünlük şəraitində insanların müxtəlif xəstəliklərdən əziyyət çəkdikləri vaxtlarda Əziz Əliyev kimi tibbi bacarığı olan gənclərə böyük ehtiyac var idi. O, həkim köməkçisi, əczaçı köməkçisi vəzifələrini fədakarcasına yerinə yetirirdi. Həm insanlara xidmət edir, həm də gələcək həkim və səhiyyə təşkilatçısı kimi zəngin təcrübə toplayırdı. Tibb təhsilini davam etdirmək arzusunu da bir an olsun unutmurdu.

## O, fədakar səhiyyə təşkilatçısı idi

Böyük alim 1923-cü ildə ali tibb təhsilini davam etdirə bilmək məqsədilə ailəsini Naxçıvandan götürüb Bakıya köçür. Həmin andan etibarən onun həyat və yaradıcılığının mühüm bir mərhələsinin təməli qoyulur. O, Bakıya gəldikdən sonra Azərbaycan Xalq Komissarları Şurasında işə düzəlir və ona tapşırılan bütün işlərin öhdəsindən layiqincə gəlir. Orada iş icraçısı, ümumi şöbə müdirinin müavini, katib köməkçisi və katib vəzifələrində çalışaraq özünü mükəmməl təşkilatçı kimi göstərə bilir. Əziz Əliyev 1923-cü ildə həm də qəbul imtahanlarını müvəffəqiyyətlə verərək, 1919-cu ildən fəaliyyət göstərən Bakı Dövlət Universitetinin Tibb fakültəsinə daxil olur. 1927-ci ildə çoxdan bəri arzusunda olduğu ali tibb təhsilini əla qiymətlərlə başa çatdırır. Elə həmin il Xalq Komissarları Şurasının göndərişi əsasında klinikada elmi-pedaqoji işə başlayır. Əziz Əliyevin fenomen bir şəxsiyyət kimi formalaşdığını təsdiqləyən universitet rəhbərliyi onun Tibb fakültəsini bitirdikdən sonra Daxili xəstəliklər kafedrasında saxlanılması haqqında qərar qəbul edir. O, bu dövrdə özünü artıq püxtələşmiş, bacarıqlı bir təşkilatçı kimi də göstərə bilir və buna görə həkimlik fəaliyyəti ilə yanaşı, ona ən məsuliyyətli ictimai və dövlət əhəmiyyətli işlər tapşırılır. Gənc həkim Tibb fakültəsini bitirdikdən sonra apardığı elmi-pedaqoji işlərlə yanaşı, 1928-1929-cu illərdə Xalq Səhiyyə Komissarlığında işə cəlb olunur və orada Müalicə şöbəsinin müdiri vəzifəsini yerinə yetirir.

Görkəmli elm xadimi 1929-cu ildə Azərbaycan Kliniki İnstitutunun direktoru vəzifəsinə təyin edilir. Alim 1932-ci ilə qədər bu instituta rəhbərlik edir. 1930-cu il mayın 9-da Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsi nəzdində Azərbaycan Dövlət Tibb İnstitutu yaradılır. ATİ-nin təşkili məsələsi çox mürəkkəb bir proses olduğundan mahir təşkilatçı kimi Əziz Əliyev bu mühüm prosesin icrasına cəlb edilir. O, 1932-ci il iyun ayının 1-dən 1938-ci ilə qədər Azərbaycan Tibb İnstitutunun rektoru vəzifəsini böyük bacarıq və uğurla yerinə yetirir.

## Heç bir çətinlik onu yolundan döndərmirdi

Rektor təyin olunarkən görkəmli alim bilirdi ki, ölkədə milli həkim, milli elmi işçi kadrlarının yetişdirilməsi üçün ilk növbədə tələbələrə təlim-tərbiyə verməyi bacaran kadrlar və ana dilində dəyərli tibb ədəbiyyatı olmalıdır. Ona görə də, Əziz Əliyev azərbaycanlı alimləri qısa müddətdə səfərbər edərək, onları ana dilində dərsliklər yazmağa sövq edir. Az vaxt içərisində, bilavasitə onun rəhbərliyi altında ana dilində 55 adda dərslik çap edilərək tələbə və müəllimlərin ixtiyarına verilir. Əziz Əliyevin təşəbbüsü ilə işıq üzü görən əsərlərdən biri də onun özünün yazdığı "Klinik analizlər" kitabı olur. Görkəmli elm xadiminin adı qısa müddətdə rus dilində olan tibbi kitablardan ən vaciblərinin Azərbaycan dilinə tərcüməsinin də təşəbbüskarı və təşkilatçısı kimi tarixə düşür.

Heç bir çətinlikdən çəkinməyən Əziz Əliyev möhkəm iradə və dözüm nümayiş etdirərək Azərbaycan Tibb İnstitutunun nəzdində tibbi kitabxana yaratmaq ideyasını reallaşdırmağa başlayır. İnstitut kollektivinin köməyi ilə 1934-cü ildə "Tibb nəşriyyatı" fəaliyyətə başlayır. Onun təşəbbüsü və redaktorluğu ilə ilk dəfə "Praktiki və nəzəri tibb jurnalı"nın nəşri işıq üzü görür. 1929-cu ildən etibarən o, "Azərbaycan Tibb Jurnalı"nın məsul katibi vəzifəsində çalışır, 1935-ci ildə isə həmin jurnalın baş redaktoru təyin edilir.

Görkəmli alim hansı ictimai, inzibati, təşkilati işlərdə çalışsa da, elmi axtarışlarını bir an belə dayandırmır. Alim 1933-cü il avqustun 4-dən Almaniyada elmi ezamiyyətdə olur. Əziz Əliyev oradan

qayıtdıqdan sonra doktorluq dissertasiyasını müdafiə edir. Azərbaycanda ilk dəfə olaraq onun dissertasiya işi 1937-ci ildə Moskvada gənc alimlər müsabiqəsində SSRİ Elmlər Akademiyasının və ÜİLKGİ Mərkəzi Komitəsinin mükafatına layiq görülən dəyərli elmi iş kimi fərqlənir. Əziz Əliyev 1941-ci il mayın 13-də (Azərbaycan SSR Xalq Səhiyyə Komissarı vəzifəsində işləyərkən) SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Rəyasət Heyəti nəzdində təşkil edilmiş Elmi Şuranın üzvü olur, 1956-cı ildə professor vəzifəsinə seçilir və həmin ildə də onun professor elmi adı təsdiq edilir.

Əziz Əliyev tibb sahəsi üzrə milli kadr hazırlığını daim ön plana çəkirdi. Onun Tibb İnstitutuna rəhbərlik etdiyi 6 il müddətində 11 doktorluq, 30 namizədlik dissertasiyası müdafiə edilir ki, onların da əksəriyyəti milli kadrlar idi. O, ATİ-də təhsil alan tələbələrin həyatı ilə yaxından maraqlanır, gənclərlə bağlı problemlər onu ciddi düşündürürdü. 1933-cü ildə Əziz Əliyevin təşəbbüsü və bilavasitə iştirakı ilə indiki Kliniki Tibbi Mərkəzin yaxınlığında "Tibb şəhərciyi"nin inşasına başlanılır. Sonralar həmin "şəhərcik"də tələbə yataqxanaları ilə birlikdə nəzəri kafedralar üçün tədris korpusları tikilir.

Böyük alimin fəaliyyət dairəsi olduqca rəngarəng və çoxcəhətli olub. Əziz Əliyev 1939-1941-ci illərdə Azərbaycan SSR Xalq Səhiyyə Komissarı vəzifəsində çalışdığı dövrdə respublikanın ən ucqar rayonlarını kəndbəkənd gəzərək misilsiz xidmətlər göstərmişdir. O dövrdə Azərbaycanda tüğyan edən son dərəcə təhlükəli yoluxucu xəstəliklərə qarşı mübarizə proqramı hazırlanıb və bu proqram dövlət səviyyəsində Əziz Əliyevin rəhbərliyi altında həyata keçirilib. Onun başçılığı ilə ölkədə xüsusi dispanserlər, şəhər və kəndlərdə 50 yerlik göz xəstəxanaları açılıb. Tezliklə traxoma, malyariya və digər xəstəliklərin qarşısı alınıb və bir çox ciddi infeksion xəstəliklərin kökü tamamilə kəsilib. Əziz Əliyevin təcrübəsi SSRİ Xalq Səhiyyə Komissarlığında müzakirə olunub və bu təcrübənin SSRİ miqyasında yayılması tövsiyə edilib.

**Daim ön xətdə**

Onun qismətinə olduqca çətin vəzifələr düşür və o, bu vəzifələrin öhdəsindən uğurla gəlir. I Dünya müharibəsi dövründə Əziz Əliyev Ordu hərbi şurasının üzvü kimi İrana ezam olunur, 1941-1942-ci illərdə orada sovet qoşun hissələrinin siyasi komissarı vəzifəsində çalışır. Görkəmli dövlət xadiminin həyatındakı mühüm dövrlərdən biri də Dağıstana rəhbərlik etdiyi illərdir. Qonşu muxtar respublikanın ağır vəziyyətində - 1942-ci ildə Əziz Əliyevin Dağıstan vilayət partiya komitəsinin birinci katibi seçilməsi onun təkcə Azərbaycanda deyil, keçmiş SSRİ-də də böyük nüfuza malik olduğunu sübut edir. Altı il bu vəzifədə çalışan Əziz Əliyev Dağıstanın həyatının bütün sahələrində böyük irəliləyişə nail olur, Azərbaycan-Dağıstan dostluğunun daha da möhkəmlənməsinə əvəzsiz töhfə verir. Əziz Əliyevin 100 illik yubileyində Ulu Öndər Heydər Əliyev demişdir: "Əziz Əliyev Azərbaycan və Dağıstan dostluğunun inkişafı sahəsində çox böyük xidmətlər göstərmiş, çoxsahəli fəaliyyəti və humanizmi sayəsində o, Azərbaycan-Dağıstan dostluğunun rəmzinə çevrilmişdir". Əziz Əliyevin xatirəsi həm Azərbaycanda, həm də Dağıstanda əbədiləşdirilmişdir.

Ulu Öndər Əziz Əliyevin 100 illik yubieyində böyük alimin, dövlət adamının ağır, məşəqqətli həyatının maraqlı məqamlarına da toxunmuşdu: "Onun həyatı heç də asan keçmirdi, maneələrlə, çətinliklərlə, özünə qarşı edilən bir çox haqsızlıqlarla rastlaşırdı. Əziz Əliyev mənə danışırdı ki, o, 1938-ci il repressiyasından möcüzə nəticəsində xilas olmuşdur. Onu sonralar, 50-ci illərin əvvəlində repressiya etdilər. İşdən çıxarıb Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru təyin etdilər, amma tezliklə bu vəzifədən də çıxartdılar. Professoru, elmlər doktorunu, bu qədər xidmətləri olan bir insanı Sabunçu xəstəxanasına adi həkim göndərdilər və o, üç il orada işlədi. Bu, onun ovaxtkı rejimin bilavasitə Mircəfər Bağırov tərəfindən həyata keçirdiyi repressiyalara məruz qaldığı dövr idi... Deməliyəm ki, mən özüm də bu repressiyadan əziyyət çəkmişəm... Ovaxtkı dövlət təhlükəsizliyi naziri general Yemelyanov məni yanına çağırıb bu sözləri dedi: "Sən cavan və bacarıqlı işçisən. Leninqradda çox yüksək təhsil alıbsan, təhsili uğurla başa çatdırıbsan, sənin gələcəyin var. Ancaq sən Əziz Əliyevin ailəsi ilə bütün əlaqələri kəsməlisən, yoxsa biz səni işdən çıxarmalı olacağıq". 1953-cü ilin əvvəllərində general Yemelyanov yenidən məni yanına çağırdı və qəti şəkildə xəbərdarlıq etdi: "Əgər sən öz əlaqələrini kəsməsən, onda nəzərə al ki, işdən çıxarılacaqsan, həm də nəinki işdən çıxarılacaqsan, eyni zamanda ciddi şəkildə cəzalandırılacaqsan". Artıq o vaxt bilirdim ki, hər şey ona doğru gedir ki, Əziz Əliyevi həbs etməli, onun ailəsini isə Mircəfər Bağırovun göstərişi ilə buradan sürgün etməli idilər. Amma Allah kömək etdi. 1953-cü ilin martında Stalin öldü, həmin ilin yayında isə Mircəfər Bağırovu əvvəlcə işdən çıxartdılar, sonra da həbs etdilər. Bütün bu müddətdə Əziz Əliyev Sabunçuda həkim işləyirdi və onu öz əvvəlki vəzifəsinə - Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru vəzifəsinə yalnız 1954-cü ilin martında qaytardılar... Müttəhimlər kürsüsündə Mircəfər Bağırovla birlikdə həmin general Stepan Yemelyanov da əyləşmişdi, o Yemelyanov ki, Əziz Əliyevlə əlaqə saxladığıma görə mənə iki dəfə xəbərdarlıq etmiş və məni danlamışdı. Ona 25 il həbs cəzası kəsdilər. Görün tale necə olur. Sonralar, 70-ci illərdə mən MK-nın birinci katibi işləyərkən Yemelyanov öz

cəzasını çəkib Bakıya qayıtdı və mənə məktub yazaraq ona bəzi şəxsi işlərində kömək göstərməyi xahiş etdi. Həyat, bax belədir".

**O, elm, mədəniyyət xadimləri ilə çox sıx təmasda olurdu**

Əziz Əliyev tarixi, ədəbiyyatı və incəsənəti çox sevirdi. Azərbaycanda və Dağıstanda işlədiyi illərdə o, elm xadimləri ilə çox sıx təmasda olurdu. Bütün tibb professorları onun dostları idilər, əksəriyyətini bu böyük alim hazırlayıb irəli çəkmişdi. Azərbaycan incəsənəti və ədəbiyyatının Üzeyir bəy Hacıbəyli, Müslüm Maqomayev, Bülbül, Niyazi, Səməd Vurğun, Süleyman Rüstəm, Qara Qarayev və bir çox başqaları kimi görkəmli xadimləri ilə onun çox yaxın, mehriban və ailəvi münasibətləri vardı. Bütün bunlar isə ona görə olurdu ki, Əziz Əliyev çox ziyalı bir adam idi və həmişə məhz bu mühitlə təmasda olmağa çalışırdı.

Görkəmli alim və dövlət xadimi I-II çağırış SSRİ Ali Sovetinin, I-III çağırış Azərbaycan SSR Ali Sovetinin, II çağırış Dağıstan MSSR-in Ali Sovetinin deputatı olub. Böyük şəxsiyyətin vətən və xalq qarşısındakı misilsiz xidmətləri yüksək qiymətləndirilib. O, iki dəfə "Lenin" ordeni, daha sonra "Qırmızı Əmək Bayrağı", "I dərəcəli Vətən müharibəsi" ordenləri, "Səhiyyə əlaçısı" döş nişanı, bir çox medallar, o cümlədən 1948-ci ildə "Moskvanın yaranmasının 800 illik" xatirə medalı və çoxsaylı fəxri fərmanlarla təltif edilib. 1960-cı ildə Əziz Əliyevə "Azərbaycan SSR Əməkdar həkimi" fəxri adı verilib.

Əziz Əliyev Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi, Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışdığı dövrlərdə də respublikada elmin, səhiyyənin, təhsilin inkişafına daim qayğı və kömək göstərmişdir.

Əziz Əliyev böyük təşkilatçı, görkəmli dövlət xadimi olmaqla yanaşı, həm də çox qayğıkeş və gözəl ailə başçısı olmuşdur. Bu ailədən dünyaşöhrətli oftalmoloq-alim Zərifə xanım Əliyeva kimi şəxsiyyət çıxmışdır.

Görkəmli alimin oğlu, Əməkdar elm xadimi, professor Tamerlan Əliyev uzun illər Azərbaycan Tibb Universitetinin Daxili xəstəliklər kafedrasına rəhbərlik etmiş, yüksəkixtisaslı həkim kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir.

Əziz Əliyevin bir oğlu da ölkə hüdudlarından kənarda şöhrət qazanmış məşhur cərrah-onkoloq, Milli Onkologiya Mərkəzinin baş direktoru, Əməkdar elm xadimi, akademik Cəmil Əliyevdir. Böyük alim 2015-ci ildə Avropa Təbiət Elmləri Akademiyasının dünyanın ən məşhur cərrahlarına təqdim edilən N.Piroqov ordeninə, "Avropanın fəxri alimi" adına və V.Leybnits medalına, həmçinin qaraciyərin subklinik patologiyasının ankoloji problemlərinin tətqiqi ilə bağlı elmi əsərlərinə görə AMEA-nın akademik M.Mirqasımov adına mükafatına layiq görülüb. Alim Rusiya Tibb Elmləri Akademiyasının akademik N.N.Petrov adına mükafatı ilə təltif olunub. Eyni zamanda Beynəlxalq Ekoenergetika Akademiyasının "Böyük qızıl medalı"na layiq görülüb. Onkologiya sahəsində bütün dünyada qəbul olunmuş yüksək elmi-praktik nailiyyətlərinə görə, akademik Cəmil Əliyevə Birləşmiş Millətlər Təşkilatının "Elm və sülh elçisi" fəxri mükafatı verilib. Dünyaşöhrətli alim Cəmil Əliyev Azərbaycan Respublikasının "Şərəf" və "Şöhrət" ordenlərinə layiq görülüb.

Əziz Əliyevin qızı, Əməkdar incəsənət xadimi Gülarə xanım Əliyevanın Azərbaycan musiqisinin, incəsənətinin inkişafı və təbliğində böyük xidmətləri olmuşdur. Qızlarından Ləzifə Əliyeva uzun illər ATU-nun Göz xəstəlikləri kafedrasında aparıcı dosent vəzifəsində çalışmışdır, Dilbər xanım isə adlı-sanlı rabitəçi-mühəndis olmuşdur.

Bu gün böyük alimin nəvə və nəticələri onun adı ilə başlanan işıqlı missiyanı ləyaqətlə davam etdirirlər. Görkəmli alimin adını daşıyan nəvə Əziz Əliyev tibb elmləri doktoru, professordur. Xalq belə ziyalıları ilə tərəqqi tapır, milli hədəflərinə doğru irəliləyir.

Professor Əziz Əliyev Azərbaycanın inkişafında son dərəcə böyük xidmətlər göstərmiş alim, həkim, dövlət xadimidir və müstəqil Azərbaycan Respublikası belə övladları ilə daim fəxr edir. Çünki ölkənin qüruru, vüqarı məhz belə şəxsiyyətlərdir.